


# СТАНДАРТЫ GS1 КАК ИНСТРУМЕНТ ИДЕНТИФИКАЦИИ И ПРОСЛЕЖИВАЕМОСТИ

СОБЫТИЯ И ФАКТЫ

## РЕГИОНАЛЬНЫЙ ФОРУМ GS1 IN EUROPE 2023




Успешно завершилась работа Регионального Форума GS1 в Европе, проходившего в Афинах (Греция) с 23-26 октября 2023 года. В работе Форума приняли участие более 700 представителей GS1 из 47 стран. В ходе проведения этого мероприятия обсуждались поиски решений для развития бизнесс-процессов, основанных на международных стандартах GS1. Участники обменивались своим опытом работы, говорили о встречающихся проблемах на пути внедрения стандартов GS1 и предлагали проекты для их решения. Среди текущих тем были дискуссии о цифровых этикетках, искусственном интелекте, прозрачности и прослеживаемости в цепях поставок, электронной коммерции, 2D-штрихкодах и цифровых ссылках, блокчейне и многое другое, что определяет перспективные направления в работе GS1 в Европе. В работе Форума приняла участие и делегация GS1Azerbaijan.

## ŞİMAL - QƏRB BÖLGƏLƏRİNDƏ SEMİNAR-TƏQDİMATLAR



Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə «Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği» İctimai Birliyinin əməkdaşları 21 - 22 sentyabr 2023 - cü il tarixlərində Ağsu və İsmayıllı rayonlarında müxtəlif istehlak məhsulları istehsal edən müəssisələrin və fərdi sahibkarların nümayəndəsinin iştirakı ilə seminar-təqdimat təşkil etmişdir. Təqdimatda qoyulan əsas mövzular GS1 sistemi, məqsəd və vəzifələri, ştrixkodun həm yerli, həm də dünya bazarında tutduğu mövqe, GS1 standartları, onların düzgün tətbiqi haqqında olmuşdur.

## ОБНОВЛЕННАЯ ВЕРСИЯ МОБИЛЬНОГО ПРИЛОЖЕНИЯ «GS1 AZERBAIJAN AZE BARCODE»



Завершается работа над разработкой новой версии мобильного приложения «GS1 Azerbaijan AZE Barcode», которое будет размещено на платформах Google Play и App Store. Оно позволит сканировать штрихкоды и получать информацию о производителе и товаре производителей со всего мира. Это будет возможно благодаря интеграции мобильного приложения с международным сервисом GS1 «Verified by GS1». Verified by GS1 – это глобальное поисковое решение по качеству данных, позволяющие проверить легальность штрихкода на товаре путем запроса на платформу реестра GS1.

## GLN VƏ GTIN PAYLANMASI QAYDALARI AZƏRBAYJAN DİLİNDƏ



GS1 Azerbaijan İctimai Birliyi öz yerli üzvlərinin dünya bazarına rahat inteqrasiyası, GS1standartlarını düzgün tətbiqi üçün ştrixkod sahəsində olan yenilikləri ölkə ərazisində təbliğ edirlər. Standartın əsas hissəsi GLN və GTIN paylanma qaydalarıdır. Bu qaydaların onlarla səhifədən ibarət olduğunu və çox geniş məlumatları özündə əks etdirdiyini nəzərə alsaq, onun hər bir üzvə mükəmməl şəkildə çatdırılması fiziki olaraq da imkansız hal alırdı. Bu səbəbdən də standartın GLN və GTIN paylanma qaydaları bir çox dillərə tərcümə olunmuşdur. Həmin qaydalar Azərbaycan dilinə tərcümə edilmiş və **www.gs1.org**, eləcə də **www.gs1az.org** saytlarında yerləşdirilmişdir.

## GS1 AZERBAIJAN ПРИСОЕДИНЯЕТСЯ К ГЛОБАЛЬНОМУ КОМПОНЕНТУ GLN ACTIVATE-GRADE




GS1 Azerbaijan завершает работу по присоединению к сервису GS1 GLN Activate-grade. GLN (Global Location Number) Глобальный номер местонахождения-это международный идентификатор. Он позволяет определить следующую информацию: какой стране принадлежит участник; где именно находится организация, её филиалы или подразделения, принадлежащий компании транспорт, магазины, склады и/или производственные помещения. Благодаря международному идентификатору можно оперативно контактировать и обмениваться информацией. После получения номера не нужно будет каждый раз указывать свои контактные данные и адрес: код уже содержит всю необходимую информацию об участнике в цепи поставок. Без номера нельзя сотрудничать с большинством торговых сетей. Наличие GLN номера поможет контрагентам понять, где, в каком месте, на каком этапе отгрузки находится товар, а также структурировать сложные цепочки поставок.

## MALLARININ ELEKTRON PASPORTLAR REYESTRİNİN YARADILMASI



***Elektron biznes sistemlərinin yaradılması və inkişafı informasiya cəmiyyətinin formalaşdırılması strategiyalarında prioritet təşkil edən istiqamətlərdən biridir. Bununla belə, elektron biznes sistemləri həm ticarət, nəqliyyat və logistika əməliyyatlarının təmin edilməsinə, həm də müasir informasiya-kommunikasiya texnologiyaları və elektron sənəd dövriyyəsi sistemləri əsasında müxtəlif kateqoriyalı istifadəçilərə xidmətlərin göstərilməsinə yönəldilmişdir. Elektron biznes sistemlərində, bir qayda olaraq, təsdiqlənmiş məlumat mənbələrindən istifadə etməklə, məhsul müxtəlif atributlarla təsvir olunur ki, onların hər biri bu məhsulun istehsalçıdan istehlakçıya hərəkəti yolunda biznes prosesi üçün vacibdir.***

Hazırda iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə elektron ticarət və ticarət müəssisələrinin avtomatlaşdırılması elə bir səviyyəyə çatmışdır ki, bu halları nəzərə almayan istehsalçının, hətta bu məhsullar yüksək keyfiyyətli olsalar da belə, öz məhsulunu satmaq şansı az olur. Müəssisələr kommersiya tərəfdaşları ilə elektron qarşılıqlı əlaqənin təmin edilməsi üçün aşağıdakılar da daxil olmaqla, müəyyən şərtlərə riayət etmək məcburiyyətində qalırlar:

– məhsulun dünya iqtisadi məkanında və nəticə etibarilə onun avtomatlaşdırılmış uçotunun aparıldığı bütün informasiya sistemlərində onu birmənalı şəkildə müəyyən edən unikal kodun olması;

– bütün maraqlı şəxslərin informasiya sistemləri üçün real vaxt rejimində beynəlxalq standartların tələblərinə uyğun tərtib edilmiş malın tam təsvirinin əlçatanlığının təmin edilməsi;

– malların ümumi qəbul edilmiş beynəlxalq tələblərə uyğun təsnifləndirilməsi;

– elektron ticarət iştirakçıları arasında beynəlxalq tələblərlə müəyyən edilmiş formatlarda məlumatlarının mübadiləsi üzrə əməliyyatların aparılması.

Yerli istehsalçılar yalnız iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin yüksək rəqabətli bazarlarında deyil, həm də qonşu dövlətlərlə ticarətdə öz məhsullarını təqdim edərkən bu halları getdikcə daha çox nəzərə almalı olurlar.



Bununla əlaqədar, fikrimizcə, Azərbaycanda elektron biznes texnologiyalarının kütləvi tətbiqi üçün rəqəmsallaşma proseslərinin inkişafına dair əlavə tədbirlər görülməlidir. Hazırda geniş yayılmış malların məlumatlarının təsvir edilməsi üçün məlumat formatlarının təsdiqi mühüm addımlardan biri ola bilər. Belə formatlar beynəlxalq standartlar səviyyəsində həll olunmuşdur və onları yalnız Azərbaycanda tətbiq etmək qalır.

Əgər Azərbaycanda belə standartlar qəbul olunarsa, o zaman, mərkəzləşdirilmiş informasiya xidməti şəklində təşkil olunan iş müəssisələrin öz mallarının təsvir edilməsini asanlaşdıracaqdır.

Belə bir xidmət mallar haqqında müxtəlif mənbələrdən (istehsalçılar, distribyutorlar, istehlak bazarına nəzarət orqanları, statistika orqanları və s.) əldə edilən məlumatlardan istifadə edəcəkdir.

Bu sahədə irəliləmək üçün aşağıdakı addımları atmaq olar:

– Azərbaycan mallarının elektron pasportlarının Əsasnaməsinin hazırlanması;

Elektron pasportda mallar haqqında müxtəlif məlumatlar cəmləşdirilməlidir.




– Malların elektron pasportlarının Reyestrinin yaradılması;

Həmin Reyestr Azərbaycan bazarında yerləşən əmtəə nomenklaturasının təsviri üçün mərkəzləşdirilmiş sistem təşkil edən resurs olmalıdır.

Belə bir xidmətin olması, fikrimizcə, Azərbaycanda Elektron ticarət proseslərinin beynəlxalq standartlara uyğun olaraq aparılmasına keçid üçün zəruri şəraitin yaradılmasına kömək edəcəkdir.

Malların elektron pasportlarının Reyestrinin məlumat xidmətlərinin istifadəçiləri, mallarını Reyestrə yerləşdirən istehsalçıların (təchizatçıların) özləri ilə yanaşı, onların kommersiya tərəfdaşları — ticarət müəssisələri, logistika və nəqliyyat müəssisələri, poliqrafiya müəssisələri (qablaşdırıcılar) ola bilər. Malların elektron pasportlarının Reyestr xidmətlərindən istifadə etməklə, bütün bu müəssisələr öz xərclərini azalda, malların və xidmətlərin istehlakçıya doğru hərəkələrini sürətləndirə bilərlər.

Müəyyən edilmiş qaydada malların elektron pasportlarının Reyestrinə «GS1 Azerbaijan» İctimai Birliyinin Əmtəə Depozitariyasında qeydiyyatdan keçmiş beynəlxalq ştrixkodlara malik mallar daxil ediləcəkdir. Yəni, beynəlxalq GS1 sisteminin tələblərinə uyğun olaraq malın əsas identifikatoru unikal GTIN (Global Trade Item Number) nömrəsi olacaqdır. GTIN-nin alınma tarixi də daxil olmaqla, digər təsvir detalları ilə GTIN-nin birləşdirilməsi saxta malların bazarda olmasını çətinləşdirir.




Bundan başqa, elektron qarşılıqlı əlaqə subyektləri kimi əmtəə istehsalçılarının və ticarət müəssisələrinin yerləşdiyi yerlərin malların elektron pasportlarının Reyestrində beynəlxalq GLN (Global Location Number) nömrəsi ilə identifikasiya edilməsi təklif olunur. 1999-cu ildən etibarən bu identifikatorların hər ikisi (GTIN və GLN) Azərbaycanda «GS1 Azerbaijan» İctimai Birliyi tərəfindən təyin edilir.

Azərbaycanda bu identifikatorlardan istifadə edənlərin sayı bu illər ərzində 3 mindən çox hüquqi şəxs və fərdi sahibkarı ötüb ki, onların 150 mindən çox məhsulu beynəlxalq identifikatorlarla markalanıb.

*Fikrimizcə, beynəlxalq elektron ticarət standartlarına uyğun formatda malların təsvirini özündə əks etdirən mərkəzləşdirilmiş informasiya resursunun olması bu gün obyektiv zərurətdir. Xüsusilə, bu imkan verir ki, məlumat sistemlərinə məhsul məlumatlarının təkrar əl ilə daxil edilməsi xərcləri, səhvlər aradan qaldırılsın və tədarük zəncirində məhsul məlumatlarının vahidliyi təmin edilsin.*

***Vəfa ƏLİYEV,***
**«Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği» İctimai Birliyinin İdarə Heyətinin sədri**

## ЗАРУБЕЖНЫЕ ПРОЕКТЫ

**«Умные штрихкоды»**




Потребители часто ищут дополнительную информацию о продукте по различным каналам, прежде чем принять решение о покупке. Чтобы воспользоваться тенденцией потребителей «поиск перед покупкой», бренды должны обеспечить такие условия, чтобы потребители могли быстрее и проще находить полную и достоверную информацию о продукте.

Один из способов включает применение смарт-штрихкодов, которые позволяют потребителям искать и покупать товары в Интернете, просто сканируя штрихкоды продуктов.

2D-штрихкоды GS1, такие как QR-коды, могут помочь брендам еще больше повысить качество обслуживания потребителей, показывая разнообразную информацию о продукте с помощью одного QR-кода.



Информационная платформа продуктов GS1 HK «1QR» содержит разнообразную информацию, такую как характеристики продуктов, стимулы, сертификаты, отслеживание, аутентификацию, предоставляя потребителям единый интерфейс «сканирования и поиска». Это также позволяет брендам использовать большие бизнес-возможности QR-кодов.

*Преимущества этого решения:*

• Розничные продавцы могут использовать один и тот же Smart QR на одной и той же упаковке продукта, чтобы предлагать различные рекламные акции в разное время и обновлять информацию о продукте, позволяя потребителям искать сюрпризы;

• Отслеживать и измерять эффективность кампании для оптимизации результатов;

• Потребители получат полную информацию о продукте;

• После сканирования «1QR» потребители могут проще и быстрее получать надежную информацию о продукте с одной платформы, включая последние предложения скидок, информацию о продукте, отслеживание и аутентификацию. Вся информация о продукте, включая сертификаты и аутентификацию продукта, предоставляется надежным источником – брендами, что, в свою очередь, защищает потребителей;




• Продукты, представленные на платформе, можно идентифицировать по уникальным «идентификаторам» (т. е. штрихкодам, начинающимся с префикса «489» означающим, что продукт выпускается компанией, зарегистрированной в Гонконге).

**Новые специальные правила маркировки вина**

Новые специальные правила маркировки, применимые к вину и ароматизированным винодельческим продуктам, были приняты институтами ЕС в декабре 2021 года в рамках реформы Общей сельскохозяйственной политики ЕС (EU Common Agricultural Policy).

Эти новые меры по маркировке требуют, чтобы вино и ароматизированная винодельческая продукция в обязательном порядке указывали список ингредиентов и декларацию о пищевой



ценности либо на этикетке, либо через цифровую поддержку.

Регламент модернизировал информацию о вине в потребительской политике, разрешив производителям предоставлять новую необходимую информацию через электронные этикетки.

*Ключевые моменты:*

• Список ингредиентов, вызывающих аллергию и непереносимость, должен быть указан на «физической» этикетке;

• «Электронные» этикетки не могут содержать никакой другой информации, предназначенной для целей продаж или маркетинга;

• Никакие пользовательские данные не могут собираться или отслеживаться с помощью электронных средств.

Принятие новых обязательных правил маркировки будет отвечать ожиданиям потребителей и повысит прозрачность, одновременно гармонизируя адаптированную коммуникацию о винах и ароматизированных винных продуктах.



К ноябрю 2023 года все вина и ароматизированные винодельческие продукты, реализуемые в ЕС, независимо от их происхождения, должны будут указывать список ингредиентов и полную декларацию о пищевой ценности на этикетке или в Интернете. Переходный период перехода с GTIN на QR-код E-Label запланирован до 2027 года и применяется только к винам и ароматизированным винным продуктам.

## GS1 в цифрах

- 116 стран являются членами ассоциации GS1
- 2 миллиона компаний используют стандарты GS1
- 1 миллиард продуктов по всему миру имеют штрихкоды
- 10 миллиардов штрихкодов сканируются каждый день

## СХЕМА ПРОСЛЕЖИВАЕМОСТИ




ПОЛЕЗНАЯ ИНФОРМАЦИЯ

## ŞTRİXKOD NEJƏ OXUNUR




## DÜNYA ÖLKƏLƏRİNİN GS1 PREFİKSLƏRİ

| | |
|---|---|
| 001-019 030-039 060-139 | ABŞ |
| 300-379 | Fransa |
| 380 | Bolqarıstan |
| 383 | Sloveniya |
| 385 | Xorvatiya |
| 387 | Bosniya və Herseqovina |
| 389 | Monteneqro |
| 400-440 | Almaniya |
| 450-459 490-499 | Yaponiya |
| 460-469 | Rusiya |
| 470 | Qırğızıstan |
| 471 | Tayvan |
| 474 | Estoniya |
| 475 | Latviya |
| 476 | Azərbaycan |
| 477 | Litva |
| 478 | Özbəkistan |
| 479 | Şri - Lanka |
| 480 | Filippin |
| 481 | Belarus |
| 482 | Ukrayna |
| 483 | Türkmənistan |
| 484 | Moldova |
| 485 | Ermənistan |
| 486 | Gürcüstan |
| 487 | Qazaxstan |
| 488 | Tacikistan |
| 489 | Hon Konq |
| 500-509 | Böyiik Britaniya |
| 520-521 | Yunanıstan |
| 528 | Livan |
| 529 | Kipr |
| 530 | Albaniya |
| 531 | Makedoniya |
| 535 | Malta |
| 539 | İrlandiya |
| 540-549 | Belçika və Lüksemburq |

| | |
|---|---|
| 560 | Portuqaliya |
| 569 | İslandiya |
| 570-579 | Danimarka |
| 590 | Polşa |
| 594 | Rumıniya |
| 599 | Macarıstan |
| 600-601 | Cənubi Afrika |
| 603 | Qana |
| 604 | Seneqal |
| 608 | Bəhreyn |
| 609 | Mavriki |
| 611 | Mərakeş |
| 613 | Əlcəzair |
| 615 | Nigeriya |
| 616 | Keniya |
| 618 | Kot de İvııare |
| 619 | Tunis |
| 620 | Tanzaniya |
| 621 | Suriya |
| 622 | Misir |
| 623 | Bruney |
| 624 | Liviya |
| 625 | İordaniya |
| 626 | İran |
| 627 | Kiiveyt |
| 628 | Səudiyyə Ərəbistanı |
| 629 | BƏƏ |
| 640-649 | Finlandiya |
| 690-699 | Çin |
| 700-709 | Norveç |
| 729 | İsrail |
| 730-739 | İsveç |
| 740 | Qvatemala |
| 741 | Salvador |
| 742 | Honduras |
| 743 | Nikaraqua |
| 744 | Kosta-Rika |
| 745 | Panama |
| 746 | Dominikan Respublikası |

| | |
|---|---|
| 750 | Meksika |
| 754-755 | Kanada |
| 759 | Venesıela |
| 760-769 | İsveçrə |
| 770-771 | Kolumbiya |
| 773 | Uruqvay |
| 775 | Peru |
| 777 | Boüviya |
| 778-779 | Argentina |
| 780 | Çili |
| 784 | Paraqvay |
| 786 | Ekvador |
| 789-790 | Braziüya |
| 800-839 | İtaliya |
| 840-849 | İspaniya |
| 850 | Kuba |
| 858 | Slovakiya |
| 859 | Çexiya |
| 860 | Serbiya |
| 865 | Monqolustan |
| 867 | Şimali Koreya |
| 868-869 | Türkiyə |
| 870-879 | Niderland |
| 880 | Cənubi Koreya |
| 884 | Kamboca |
| 885 | Tailand |
| 888 | Sinqapur |
| 890 | Hindistan |
| 893 | Vyetnam |
| 896 | Pakistan |
| 899 | İndoneziya |
| 900 919 | Avstriya |
| 930.939 | Avstraüya |
| 940-949 | Yeni Zelandiya |
| 950-951 960-969 | GS1 Baş ofis |
| 955 | Malayziya |
| 958 | Makao |

**Адрес GS1 Azerbaijan:**
*Баку, ул. Хагани, 90А.*
**Телефоны:** *498 74 05, 498 10 58.*
**e-mail:** *ean@gs1az.org* ***www.gs1az.org***

***Подготовили: А.ЭЙВАЗОВ;***
***Исполнительный директор GS1 Azerbaijan С. АЛИЕВА.***